**03 iyun 2019-cu il tarixli R-79 nömrəli əmr**

***2018/2019-cu tədris ilində yaz semestrinin imtahan sessiyasının keçirilməsi üzrə qərargahın yaradılması haqqında***

2018/2019-cu tədris ilinin yaz semestrinin imtahan sessiyasını mövcud qaydalara uyğun təşkil etmək, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı və obyektivliyi təmin etmək, yarana biləcək münaqişələri və neqativ halları operativ surətdə aradan qaldırmaq məqsədi ilə

***əmr edirəm***

1. 2018/2019-cu tədris ilinin yaz semestrinin imtahan sessiyasının keçirilməsi haqqında verilmiş 17.05.2019-cu il R-69 nömrəli əmrin 16-cı bəndinə əsasən imtahanların təşkilində və gedişində yarana biləcək problemlərin həll edilməsini, neqativ halların qarşısının alınmasını, baş vermiş neqativ hallarla bağlı daxil olan məlumatların araşdırılaraq onların operativ həll edilməsini təmin etmək məqsədilə aşağıdakı tərkibdə qərargah yaradılsın:

| | | | | | |
|---|---|---|---|---|---|
| 1) | Qurbanov Elşad | - | Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor | - | sədr |
| 2) | Məmmədov Elçin | - | Tədris prosesinin təşkili və ona nəzarət şöbəsinin müdiri, dosent | - | sədr müavini |
| 3) | Mehrəliyev Yaşar | - | Differensial və inteqral tənliklər fizikası kafedrasının müdiri, professor | - | üzv |
| 4) | Əliyev Səməd | - | Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, dosent | - | üzv |
| 5) | Qasımova Rəna | - | Optika və molekulyar fizika kafedrasının müdiri, professor | - | üzv |
| 6) | Salmanov Vaqif | - | Yarımkeçiricilər fizikası kafedrasının müdiri, professor | - | üzv |
| 7) | Məmmədov İbrahim | - | Neft kimyası və kimya texnologiyası kafedrasının professoru | - | üzv |
| 8) | Məlikov Elvin | - | Yüksək molekullu birləşmələr kimyası kafedrasının 0,5 ştat müəllimi | - | üzv |
| 9) | Salayeva Samirə | - | Genetika və təkamül kafedrasının dosenti | - | üzv |

| | | | | | |
|---|---|---|---|---|---|
| 10) | Kazımov Mehdi | - | İran filologiyası kafedrasının müdiri, professor | - | üzv |
| 11) | Abdullayev Mehman | - | Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri, dosent | - | üzv |
| 12) | Orucova Səhər | - | Şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor | - | üzv |
| 13) | Knyaz Aslan | - | Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri, dosent | - | üzv |
| 14) | Cavadov Rövşən | - | Gender və tətbiqi psixologiya kafedrasının müəllimi | - | üzv |
| 15) | Vəliyeva Səbinə | - | Azərbaycan dilçiliyi kafedrasının 0,5 ştat müəllimi | - | üzv |
| 16) | Mirzəyev Əmirxan | - | Elm və innovasiyalar üzrə prorektorun müavini | - | üzv |
| 17) | Sadıqov Tofiq | - | Baş hüquqşünas | - | üzv |
| 18) | Kərimov İsmayıl | - | Tələbə Gənclər Təşkilatının sədr müavini | - | üzv |
| 19) | Abışova Nərgiz | - | Karyera, praktika və məzunlarla əlaqə Mərkəzinin tyutoru | - | katib |

2. Qərargaha daxil olan şikayətlərin, təklif və məlumatların hərtərəfli, obyektiv və operativ araşdırılması üçün universitet üzrə «Qaynar xətt» xidməti yaradılsın. Bu məqsədlə:

a) xüsusi telefon xətti fəaliyyət göstərsin;
b) elektron ünvan yaradılsın və e-mail vasitəsi ilə daxil olan məlumatların təhlili əsasında müvafiq tədbirlər həyata keçirilsin;
c) universitetin əsas binasında və digər tədris korpuslarında şikayət və təkliflər üçün mövcud qaydada möhürlənmiş qutular yerləşdirilsin.

3. Qərargahın sədri Elşad Qurbanova tapşırılsın:

a) Qərargaha və «Qaynar xətt»-ə daxil olan hər bir şikayət ərizəsini operativ surətdə araşdırılmasını təmin etsin, mövcud qanunvericiliyə uyğun neqativ hallara yol vermiş şəxslərə qarşı tədbirlərin görülməsi haqqında təkliflər hazırlasın və rektorluğa təqdim etsin;
b) Təhsil Nazirliyində fəaliyyət göstərən «Qaynar xətt» xidmətindən daxil olan hər bir şikayəti operativ sürətdə araşdırılmasını və nəticəsi barədə Təhsil Nazirliyinə məlumatların verilməsini təmin etsin;
c) apellyasiya şikayətlərinin araşdırılması zamanı aşkar edilmiş ziddiyyətlərin aradan qaldırılması ilə bağlı təkliflərin hazırlanmasını, lazım olduqda isə ekspert və mütəxəssislərin cəlb edilməsini təmin etsin.

4. Fakültə dekanlarına tapşırılsın ki, tələbələrin imtahan yazı işlərinin təkrar yoxlanılması üçün tələb olunan işlərin vaxtında qərargaha verilməsini təmin etsinlər.

5. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***ƏSAS:*** AR Təhsil nazirinin 14 may 2019-cu il tarixli F-265 nömrəli əmri, BDU üzrə verilmiş 17.05.2019-cu il tarixli R-69 nömrəli əmr.

**Rektor** **Elçin Babayev**

**Layihəni hazırlayıb:**

____________________Elçin Məmmədov

Tədris prosesinin təşkili və ona nəzarət şöbəsinin müdiri

**Razılaşdırılıb:**

_________________ İradə Əliyeva

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor

_________________ Aydın Kazımzadə

Elm və innovasiyalar üzrə prorektor

_________________ Tofiq Sadıxov

Baş hüquqşünas